# Tanınmış avstraliyalı vəkil işğaldan azad olunmuş ərazilərə səfər edib

**Azərbaycan reallıqlarının təbliği istiqamətində fəallıq göstərən avstraliyalı vəkil Steven Blyth Şuşa şəhərinə səfər edib. Səfərdə məqsəd işğaldan azad olunmuş ərazilərdə Azərbaycanın qədim abidə və tikililəri ilə tanışlıq və erməni vandalizminin əyani şahidi olmaqdır.**




AZƏRTAC xəbər verir ki, əvvəlcə Cıdır düzünə gələn avstraliyalı vəkil oradan açılan gözəl mənzərəni seyr edib. Steven Blyth sonra Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Yuxarı Gövhər ağa məscidi, Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərinin qoyulduğu Şuşa şəhər mərkəzi meydanı, Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı, Xan sarayı, qala divarları ilə tanış olub.

Dövlət Qoruğu İdarəsinin əməkdaşı tərəfindən ona Şuşanın tarixi, şəhərdəki abidələr barədə məlumat verilib. Bildirilib ki, Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr 30 ilə yaxın işğal dövründə erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.

Avstraliyalı vəkil Qarabağa səfəri çərçivəsində Ağdam şəhərinə də gedib, Ermənistan silahlı qüvvələrinin Ağdamda törətdiyi vəhşiliklər, eləcə də şəhər işğaldan azad olunandan sonra Azərbaycan dövlətinin həyata keçirdiyi tikinti-quruculuq işləri ilə tanış olub.

Steven Blyth Avstraliyanın müxtəlif şəhərlərində keçirilən və Azərbaycanla bağlı təşkil olunan tədbirlərdə iştirak edir. Avstraliya-Azərbaycan Dostluq Cəmiyyətinin yaradılmasının təşəbbüskarlarından olan Steven Blyth eyni zamanda Avstraliyada erməni lobbisinin anti-Azərbaycan təbliğatına qarşı fəal şəkildə mübarizə aparır. Avstraliya-Azərbaycan Dostluq Cəmiyyətinin üzvləri Avstraliyanın müxtəlif şəhərlərində Xocalı soyqırımının anım günləri ilə bağlı tədbirlər keçirir, həmçinin bu ölkənin hökumət və parlament rəsmiləri ilə görüşlərdə ölkəmiz haqqında məlumatlar təqdim edirlər.

Azərbaycan.- 2025.- 13 may (№ 97).- S.7.